# KİTAB TƏBLİĞATÇISI

***Şagirdlərə elmlərin əsasları üzrə bilik vermək, şəxsi bacarıq və əmək vərdişləri aşılamaq müstəqilliyin ilkin mərhələsində müəllimdən yaradıcılıq, təcrübə tələb edir. Bu vaxtdan Azərbaycan kənd orta məktəbin dil-ədəbiyyat müəllimi Səfər Əmənullayev də gənc nəslin dünyagörüşünün formalaşdırılmasında, mədəni səviyyəsinin və mənəvi aləminin zənginləşdirilməsində mütaliəyə mühüm yer ayırır.***

Yeri gəldikcə, şagirdlərinin mənəviyyatını saflaşdırır, onlarda gözəl insani keyfiyyətlər aşılayır. Sözün məna və gözəlliyinə, onun ən incə çalarlarına qarşı həssaslıq yaradır.

Səfər müəllimin şəxsi kitabxanasında min nüsxədən artıq kitab toplanmışdır.

Bu kitab aləminin tarixi böyükdür. Hələ tələbəlik illərindən Azərbaycan ədəbiyyatının görkəmli simalarını şəxsən görmək, təmasda olmaq, maraqlı söhbətlərini dinləmək Səfər müəllimə qismət olmuş və zaman keçdikcə bu şirin, unudulmaz xatirəyə çevrilmiş, elə o vaxtdan da kitablar üçün bir otaq ayırmışdır. Necə deyərlər, bütöv bir dünya sığıb həmin otağa. Axı dünyanın ən görkəmli ediblərinin əsərləri toplanıb bu dünyaya...

Dünya, rus, o cümlədən müasir Azərbaycan ədəbiyyatının nadir nümayəndələri, ədəbiyyat korifeylərinin əsərləri kitabxananın rəflərini bəzəyir. Onu da qeyd edim ki, kitabların yarıdan çoxu V-XI siniflərdə Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə bağlı olan dərslik və metodik vəsaitdən ibarətdir. Bu kitablar onun pedaqoji fəaliyyətində, şəxsi təhsilinin artırılmasında böyük rol oynayır.

Səfər müəllim heç vaxt dərslikdəki məlumatla kifayətlənmir, əlavə ədəbiyyat oxuyur və biliyini şagirdlərə səylə aşılayır. Digər tərəfdən bu şəxsi kitabxana ilə yerli kitabsevərlər də əlaqə saxlayır, onları maraqlandıran mənbələrdən istifadə edirlər.

Bir müəllim kimi kitabın onun həyatında nə kimi rol oynadığını öz dilindən eşitmək istədim. Səfər müəllim dedi:

- Görkəmli dövlət xadimləri, alim və mütəfəkkirlər kitabın elmi, informasiya, ictimai-siyasi və ideoloji tərbiyə vasitəsi kimi rolunu yüksək qiymətləndirmişlər. Mən də bir müəllim kimi, əgər belə demək mümkünsə, haqqımda yaxşı nə söz eşitmişəmsə bu hər şeydən əvvəl, kitabların sayəsində olmuşdur. ADU-da oxuyarkən sevimli müəllimlərimiz bizdə kitaba çox böyük maraq oyatmışdır. Elə həmin vaxtdan mən də başqaları kimi kitab toplamağı qərara aldım. Kitabı elə belə kitab toplamaq xatirinə deyil, müəllimlik, vətəndaşlıq borcumu yerinə yetirərkən ondan istifadə etmək üçün toplamışam.

1950-ci ildən bugünədək kitablar mənim yoldaşım olublar. Bəzən fikirləşirsən ki, bu kitablar olmasaydı...

Lakin belə anlarda M.Qorkinin vaxtilə dediyi "Kitablar mənim ağlımı və qəlbimi qanadlandırdı, üfunətli bataqlıqdan qalxmağa kömək etdi. Bu kitablar olmasaydı, mən səfalət və alçaqlıq içində qərq olardım" sözləri yadıma düşür, qəlbimə hakim kəsilir. Və çalışıram ki, hər dəqiqə, hər an bu kitablardan yeni bir şey əxz edim.

Səfər Əmənullayev kitabxanamızın bütün tədbirlərində fəal iştirak edir. Şəxsən oxucu konfranslarının hazırlanmasında, ədəbi-bədii gecələrin keçirilməsində, kitabxanada keçirilən tədbirlərdə fəal iştirak edir.

Bəli, aqillərin təbirincə desək, kitabsız ev ürəksiz bədənə bənzəyir. Səfər müəllimin də kitaba olan bu məhəbbəti onun qəlbinə, ürəyinə hopub.

**Ağaş MİRZƏZADƏ,**
**əmək veteranı**
Lerik rayonu